## Taksit kartları nağdsız ödənişləri stimullaşdırır

Azərbaycan Sənaye Bankı İdarə Heyəti sədrinin müşaviri Doğan Tandoğan «Taksit kartları nağsız ödəniş vasitəsi kimi» mövzusunda çıxışında demişdir:

- Azərbaycan Sənaye Bankı 2012-ci ildə kart bazarına investisiyaları artıraraq infrastrukturunu möhkəmləndirmişdir. Görülən işlərin nəticəsi olaraq, bankımız Azərbaycanda ilk dəfə onlayn rejimdə prossesinq əməliyyatlarını və taksit sistemini həyata keçirməyə başlamışdır. Tətbiq etdiyimiz yeniliklər nəticəsində müştərilərimiz həm kart, həm də digər bank xidmətlərindən bir cari hesab üzərindən yararlana bilmək imkanı əldə ediblər.

Bankımız «MilliKart» Prosessinq Mərkəzi, «Mastercard» və «SmartSoft» şirkəti ilə əməkdaşlıq nəticəsində ilk dəfə olaraq plastik kartlarda taksit (hissələrlə ödəniş) sisteminin tətbiqini uğurla həyata keçirir. Bankın hissələrlə ödəniş üzrə yeni kart məhsulu olan «Extra Card» vasitəsilə partnyor olan ticarət və xidmət məntəqələrindən satın alınan xidmət və ya məhsulların dəyərini 12 ayadək, faizsiz olaraq hissələrlə ödəmək, kartdakı vəsaiti xərclədikcə bonus qazanmaq mümkündür. «Extra Card» layihəsinin həyata keçirilməsi ilə birlikdə Azərbaycanda ilk dəfə olaraq onlayn rejimdə işləyən kartlı ödəniş sistemi tətbiq edilmişdir. Müştərilərimiz hissələrlə ödəmə imkanından əlavə ödəmələrə görə bonus qazanmaq və qazanılan bonusları məhdudiyyətsiz olaraq xərcləmək imkanı da əldə edirlər.

Hazırda bankımızın debet kartlarının sayı 23 mindən çoxdur, kredit kartlarının sayı isə 7 minə çatmışdır. Bu kartlardan taksit xüsusiyyətinə malik kredit kartlarının sayı 3 mini, bonus xüsusiyyətinə malik olan debet kartların sayı isə 5 mini ötmüşdür. Azərbaycan Sənaye Bankının əsas prioritetlərindən biri də kartların istifadə olunduğu ticarət və xidmət obyektlərində POS-terminalların sayının artırılmasıdır. Hesab edirik ki, Vergilər Nazirliyinin həyata keçirdiyi uğurlu layihələr POS-terminal şəbəkəsinin genişlənməsinə və bankımızın nağdsız ödənişlər zamanı istifadə olunan kartlarının sayının artmasına şərait yaratmışdır. 2012-ci ilin III rübünün sonunda Azərbaycan Sənaye Bankının POS-terminallarının sayı 600 ədədə çatmışdır. İnanırıq ki, həyata keçirilən tədbirlər vətəndaşların nağdsız ödənişlərə olan marağının daha da artmasına yeni təkan verəcəkdir.